# Rusiya mətbuatı anti-Azərbaycan kampaniyası aparır

## Təyyarə qəzası ilə bağlı son söz istintaqın qərarından sonra deyiləcək



"Son günlər Rusiya mətbuatında Azərbaycana qarşı qərəzli ittihamlar irəli sürülməkdədir. Bu qeyri-səmimiliyi Azərbaycan təyyarəsinin Qroznı səmasında vurulmasının məsuliyyətini Rusiyanın boynuna alması üçün mətbuatda start verdiyi anti-Azərbaycan kampaniyasının tərkib hissəsi adlandırmaq olar".

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, Rusiya hərbi hava qüvvələri tərəfindən vurulmuş mülki təyyarəyə görə Azərbaycandan rəsmi şəkildə üzr istəməli, təyyarənin dəyəri ödənilməli, çoxsaylı insanın həlak olmasına səbəb olan şəxslər cəzalandırılmalı və həlak olanların ailələrinə kompensasiyalar verilməlidir. Birinci məsələ həllini tapıb. Amma Rusiya mətbuatı 44 günlük Vətən müharibəsi zamanı Zəngəzurda Azərbaycanla sərhəd ərazidə Ermənistanın hərbi kolonunu müşayiət edən helikopterin vurulmasını və 20 sentyabr 2023-cü ildə keçirilmiş antiterror tədbirləri zamanı dislokasiya olunmuş hərbi bazadan kənara çıxmamaqla bağlı məlumatlandırılmasına baxmayaraq, qəsdən hərəkətə keçmiş rus əsgərlərinin erməni əsgəri bilinərək səhvən vurulmasını yenidən gündəmə gətirir və ölkəmizə qarşı ittihamlar səsləndirirlər. Əslində, helikopterin sərhədimizdə vurulmasının günahı isə Rusiya hərbçilərinin özlərində idi. Müharibə gedən ərazidə erməni kolonunu niyə rus helikopteri müşayiət etməli idi? Amma Azərbaycan konfrontasiyaya yol verməmək üçün helikopterin dəyərini Rusiyaya ödədi və həlak olanların ailələrinə kompensasiyalar verdi. "Eyni addımları Rusiya da atmalıdır. Biz demirik ki, Rusiya təyyarəmizi qəsdən vurub, amma nə olursa-olsun, təyyarə Rusiya səmasında vurulub və buna görə rəsmi Moskva məsuliyyət daşıyır. Çox təəssüf ki, Rusiya media resursları Azərbaycana qarşı qarayaxma kampaniyası aparır və bununla əsl məqsəddən yayınmağa çalışırlar", - deyə o əlavə edib.

Deputatın fikrincə, yaxşı olar ki, rəsmi Moskva hadisəni düzgün qiymətləndirib Azərbaycanın atdığı addımlara adekvat cavab verərək iki ölkə arasında münasibətlərin qorunub saxlanılmasını dəstəkləsin: "Rusiya dünyada tərəfdaşlarını itirərək təklənir. Bu baxımdan yaxın qonşusu Azərbaycanla da münasibətlərin pisləşməsi indiki dövrdə ona lazım deyil. Odur ki, baş vermiş hadisədə ədalətlilik nümayiş etdirməlidir".

A.Badamov xatırladıb ki, Rusiya Xarici işlər naziri Sergey Lavrov mətbuat konfransında iki ölkə arasında cəmiyyətdə səsləndirilən ittihamlardan narahatlığını və istintaqın nəticələrini səbirlə gözləməyin lazım olduğunu bildirib: "Təbii ki, təyyarə qəzası ilə bağlı son söz istintaqın qərarından sonra deyiləcək. Qəzanın araşdırılması beynəlxalq ekspertlərdən təşkil olunmuş komissiya tərəfindən aparılır. Bunun baş verməsinin səbəbləri və bu hadisədə əli olan şəxslər istintaqın yekun rəyindən sonra bilinəcək. Əlbəttə ki, yekun qərardan sonra qəzanın baş verməsində Rusiyanın nə qədər rolu olduğu aydınlaşacaq".







Deputat hesab edir ki, bu qəza Azərbaycan və Rusiya münasibətlərinə xələl gətirməməlidir. Ona görə də komissiyanın müvafiq qərarından sonra Rusiya tərəfindən beynəlxalq normalara uyğun müvafiq addımların atılacağı gözlənilir. Burada ilk növbədə Rusiya özü maraqlı olmalıdır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 31 yanvar (№ 21).- S. 7.